## MUSİQİ SƏNƏTİ

**UOT 78**
**ORCID: 0009-0006-6058-9752**
**DOI: 10.52094/YJXB7885**

**Mustafa Aşurov Əhməd oğlu**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Baş müəllim**
ashuroğhlu@gmail.com

# AZƏRBAYCAN DİRİJORLUQ SƏNƏTİNDƏ SƏİD RÜSTƏMOVUN ROLU VƏ MÖVQEYİ

**Xülasə:** Təqdim olunan məqalə bəstəkar, dirijor, ictimai xadim kimi Azərbaycan musiqi mədəniyyətində mühüm mövqeyə malik olan Səid Rüstəmovun dirijorluq fəaliyyətinin araşdırılmasına həsr olunmuşdur. Müxtəlif illərdə Əməkdar kollektiv Səid Rüstəmov adına Xalq Çalğı Alətləri Orkestrində bədii rəhbər – baş dirijor və hal-hazırda vaxtilə onun rəhbərlik etdiyi Xalq Mahnı və Rəqs Ansamblında (indiki Əməkdar kollektiv F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs ansamblı) direktor-baş dirijor kimi çalışdığım üçün, Səid Rüstəmovun dirijorluq fəaliyyətini tədqiq etməyi qarşıma məqsəd qoymuşam. Səid Rüstəmov rəhbərlik etdiyi orkestrin repertuarını zənginləşdirmiş, ifaçılıq səviyyəsini yüksəltmiş və dünya klassiklərinin əsərlərini orkestr üçün köçürmüşdür. Bu gün onun adını daşıyan orkestr S.Rüstəmovun qoyduğu ənənələri davam etdirərək onun Azərbaycan dirijorluq sənətindəki mövqeyini qoruyub saxlayır.

**Açar sözlər:** Səid Rüstəmov, orkestr, Mahnı və Rəqs ansamblı, repertuar, fantaziya, konsert səfərləri.

**GİRİŞ:** Bəstəkar, dirijor, müəllim, ictimai musiqi xadimi kimi geniş şöhrət tapmış professor Səid Rüstəmov Azərbaycan musiqi tarixində dərin iz qoymuşdur. Azərbaycan musiqi sənətinin təşəkkülündə və inkişafında möhkəm yer tutan Səid Rüstəmov bir sıra dəyərli əsərlərin müəllifi olmaqla yanaşı, milli musiqi nümunələrinin toplayıcısı və bilicisi idi. Milli musiqi folkloruna dərindən bələd olaraq bu qaynar çeşmədən pöhrələnən bəstəkarın özünəməxsus

musiqi dili, yazı üslubu, fərdi yaradıcılıq prinsipləri və xüsusiyyətləri onun bütün əsərlərində diqqəti cəlb edir.

1931-ci ildə Üzeyir Hacıbəylinin notlu xalq çalğı alətləri sahəsindəki yenilikləri bütün Şərq aləmində böyük bir mədəni hadisəyə çevrildi. Orkestrin konsertmeysteri kimi fəaliyyətə başlayan gənc musiqiçi Səid Rüstəmov bütün alətlər qrupunun koordinasiyasını təmin edərək ifaçılara peşəkar dəstək göstərmiş, xüsusilə texniki cəhətdən zəif olan ifaçıların inkişafı üçün böyük əmək sərf etmişdir. O, orkestr üzvləri ilə səmimi davranır, musiqiçilərə böyük hörmətlə yanaşaraq şəxsi münasibətləri orkestrin inkişaf yoluna istiqamətləndirirdi. Onun insanpərvərliyi orkestr üzvləri arasında mehribanlıq, səmimilik yaradaraq orkestrə yeni-yeni müvəffəqiyyətlər gətirir, beləliklə də orkestrin ifaçılıq keyfiyyəti yüksəlirdi.

**ƏSAS MƏTN:** 1935-ci ildə Üzeyir Hacıbəyli orkestrə rəhbərlik etməyi etibarlı və çalışqan köməkçisi Səid Rüstəmova həvalə edir. Beləliklə, Səid Rüstəmov dirijorluq fəaliyyətinə başlayır. Yaradıcılığının ilk addımlarını xalq çalğı alətləri orkestri ilə bağlayan dirijor tezliklə rəhbərlik etdiyi bu kollektiv üçün əsərlər bəstələyərək orkestrin ifasında səsləndirir. Ümumiyyətlə, notlu xalq çalğı alətləri orkestrinin yaranması ilə milli musiqi sənətimizin kütləvi təbliği üçün geniş imkanlar açılır. Üzeyir Hacıbəylinin “Çahargah” və “Şur” fantaziyaları, Səid Rüstəmovun “Bayatı-Kürd” fantaziyası, “Cəngi” pyesi, “Sevinc rəqsi”, Müslüm Maqomayevin “Radio marşı” orkestrin repertuarına daxil edilir. Sınaq məqsədilə dünya bəstəkarlarının bir-sıra əsərləri: P.İ.Çaykovski “Şelkunçik” baletindən “Vals”, J.Bize “Karmen”operasından “Uvertüra”, F.Şubert “Hərbi marş”, “Serenada”, S.Küi “Oriental” əsərləri xalq çalğı alətləri orkestri üçün köçürülərək səsləndirilir və böyük uğurla qarşılanır. S.Rüstəmovun rəhbərliyi ilə orkestr müntəzəm olaraq radio dalğalarında, Azərbaycanın müxtəlif bölgələrində, xalqın iştirakı ilə bütün təntənəli bayramlarda çıxış etməyə başlayır. Dinləyicilər xalq çalğı alətləri orkestrinin ifasında muğamlar, xalq mahnıları ilə yanaşı Azərbaycan və dünya bəstəkarlarının əsərlərinin professional səviyyədə səslənməsinə çox sevinir və bu uğura görə Səid Rüstəmovu ürəkdən alqışlayırdılar.

1937-38-ci illərdə artıq Səid Rüstəmovun rəhbərliyi ilə xalq çalğı alətləri orkestrinin tərkibi genişlənmiş, tar qrupuna bas tarlar, nəfəs alətləri qrupuna üçüncü, dördüncü balabanlar əlavə olunmuşdur. Orkestr M.İ.Qlinka, P.İ.Çaykovski, M.P.Musorqski, A.Darqomıjski, J.Bize, C.Verdinin əsərlərindən,

orkestr üçün işlənmiş xalq mahnı və rəqslərdən ibarət zəngin repertuara malik idi.

1937-ci ildə Leninqradda (indiki Sankt-Peterburq), 1938-ci ildə isə Moskvada keçirilən Azərbaycan Mədəniyyəti və İncəsənəti Ongünlüyündə xalq çalğı alətləri orkestri böyük müvəffəqiyyətlə çıxış etdi. Səid Rüstəmov "Arşin mal alan" operettasını xalq çalğı alətləri orkestri üçün köçürərək simli-mizrablı alətlər qrupuna bir-neçə saz, nəfəs alətləri qrupuna tütəyi əlavə edərək səslənmə palitrasını daha da genişləndirir. Moskva şəhərində "Böyük Teatr"ın səhnəsində "Arşin mal alan" operettasının xalq çalğı alətləri orkestrinin ifasında səsləndirilməsi musiqi incəsənətinin böyük marağına səbəb oldu. Moskvada müxtəlif qəzetlərdə çap olunan resenziyalarda Səid Rüstəmovun yüksək professionallığı, onun məharətli dirijorluq sənəti xüsusilə qeyd olunurdu. Musiqişünas Y.Qroşeva yazır: "*Biz bir çox xalqların orkestrlərini dinlədik. Amma onlar notsuz ifa edirdilər. Azərbaycan xalq çalğı alətləri orkestrinin professionallığı bizi heyran etdi. Səid Rüstəmovun çıxışı bütün tamaşaya xüsusi təravət verdi. Xalq çalğı alətləri orkestrinin müşayiəti ilə "Arşin mal alan" operettasının səhnə təcəssümü sözsüz ki, ilk gözəl təcrübədir. Orkestrin son dərəcə nizamlı və savadlı olması, ahəngdar səslənməsi şübhəsiz ki, Səid Rüstəmovun xidmətidir*" [Kazımov N., 2022].

"Böyük Teatr"da uğurlu çıxışına görə Səid Rüstəmova Əməkdar incəsənət xadimi kimi şərəfli ad verildi. Səid Rüstəmov Üzeyir Hacıbəylinin "Koroğlu" operasından Aşıq mahnısını, Nigarın ariyasını, Müslüm Maqomayevin "Nərgiz" operasından Nərgizin ariyasını, "Şah İsmayıl" operasından Müqəddimə, Rəqsi xalq çalğı alətləri orkestri üçün köçürərək rəhbərlik etdiyi kollektivin ifasında səsləndirməklə repertuarı zənginləşdirir. Onun rəhbərliyi ilə orkestr böyük bir yaradıcılıq məktəbinə çevrilmişdir. Səid Rüstəmov orkestr üçün ifaçılar yetişdirməklə kifayətlənməz, onların ifaçılıq sənətinin yüksədilməsinə, təkmilləşməsinə diqqətlə yanaşar, gənc müğənni və ifaçılara klassik üsluba riayət etməyi tövsiyə edərək onların fərdi yaradıcılıq simasının açılmasına da daim şərait yaradardı. Səid Rüstəmov musiqiçiləri təkrar və təqlidçilikdən uzaqlaşdırar, orkestrin dinləyicilərin qəlbinə yol tapması üçün müxtəlif janrlı əsərlərdən və yeni-yeni formalardan istifadə edərdi. Azərbaycan musiqiçilərindən Ağabacı Rzayeva, Qəmbər Hüseynli, Süleyman Ələsgərov, Hacı Xanməmmədov, Əşrəf Abbasov yaradıcılıqlarını Səid Rüstəmovun rəhbərlik etdiyi bu kollektivdə başlamış və ilk əsərlərini xalq çalğı alətləri orkestri üçün yazmışlar. Məşhur ifaçılarımız: Hacı Məmmədov, Məmmədağa

Muradov, Əhsən Dadaşov, Oqtay Quliyev, Adil Gəray, Sərvər İbrahimov, Baba Salahov, Fərhad Dadaşov, Bəhruz Zeynalov, Tərlan Qazıyeva, Rəhilə Kərimova, Qəribə Hacızadə, İzzət Məmmədova, Asya Tağıyeva, Vəsilə Babayeva, Vəcihə Səfərova, Ruhiyyə Məmmədbəyli, Ceyran Cəfərova bu orkestrin yetirmələri olmuşlar.

1941-ci ildə Səid Rüstəmovun rəhbərliyi ilə orkestr Özbəkstanın Daşkənd, Kokand, Namanqan, Əndican şəhərlərində uğurlu konsertlər verir. Özbək musiqisevərləri orkestrin ifasında Azərbaycan bəstəkarlarının əsərləri ilə yanaşı dünya musiqi incilərinin professional səviyyədə səslənməsini heyrətlə qarşıladı.

Böyük Vətən Müharibəsi illərində orkestrin bir çox ifaçıları cəbhəyə getdiyinə görə Səid Rüstəmov 416-cı Azərbaycan diviziyasında xalq çalğı alətləri orkestri təşkil edir. O, çox gözəl başa düşürdü ki, belə çətin və ağır günlərdə xalqı ruhlandırmaq, döyüşçüləri qələbəyə səsləndirmək lazımdır. Bu illərdə Səid Rüstəmov hərbi mövzuda mahnı və rəqs ansamblı üçün “Dinlə cəbhə” (sözləri Rəsul Rza), “Günəşli Azərbaycan” (Sözləri Süleyman Rüstəm) süita kompozisiyalarını, xalq çalğı alətləri orkestri üçün hərbi musiqi nümunəsi olan “Qəhrəmani” pyesi, “Sərhədçilər marşı”, “İrəli”, “Cəbhəyə”, “Şanlı ordumuz”, “Qızıləsgər yürüş mahnısı”nı bəstələyir. “Qəhrəmani” pyesinin partiturasında zurna və qoşanağaradan istifadə edərək bu alətlərin hər ikisini orkestrin tərkibinə daxil edir.

Böyük Vətən Müharibəsi illərindəki çoxşaxəli fəaliyyətinə görə Səid Rüstəmov “Qafqazın müdafiəsi üçün” və “Böyük Vətən Müharibəsində fədakar əməyə görə” medalları ilə təltif olunur. Müharibədən sonra o, bəstəkarlıq və dirijorluq fəaliyyətini daha da genişləndirərək Fialetov adına klubun Mahnı və Rəqs ansamblına rəhbərli edir.

1944-cü ildə Tbilisidə keçirilən “Zaqafqaziya baharı” musiqi festivalında xalq çalğı alətləri orkestri Səid Rüstəmovun əsərləri ilə çıxış edərək musiqi ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir. Bu əsərlərin içərisində “Qəhrəmani” pyesi də səslənərək gurultulu alqışlarla qarşılandı. Musiqişünas A.Novikov yazırdı: “*Öz əsərlərindən ibarət konsert proqramına dirijorluq edən bəstəkar Səid Rüstəmovun rəhbərlik etdiyi xalq çalğı alətləri orkestrinin çıxışı təkcə Azərbaycan xalqının deyil, bütün dünya musiqi mədəniyyətinin nailiyyətidir*.” [Новиков А., 1952]

1945-ci ildə Moskvada xor özfəaliyyətinə Ümumittifaq baxış keçirilir və həmin baxışda Azərbaycanı Səid Rüstəmovun rəhbərlik etdiyi Fialetov adına

klubun Mahnı və Rəqs ansamblı təmsil edir. Ansamblın xormeystri H.Əliyev, rəqs quruluşçusu Ə.Abdullayev idi.

Üzeyir Hacıbəylinin vəfatından sonra Səid Rüstəmov Azərbaycan Bəstəkarlar İttifaqının sədri təyin olunur və 1953-cü ilə kimi bu məsul vəzifəni layiqincə yerinə yetirir. Onun rəhbərliyi ilə Azərbaycan bəstəkarlarının simfonik musiqi sahəsində müvəffəqiyyətləri parlaq nəzərə çarpır. E.Abbasova yazır: “*Xalq çalğı alətləri orkestrləri üçün yazılan musiqi sahəsində də uğurlar əldə olunmuşdur. Səid Rüstəmovun Azərbaycan xalq çalğı alətləri orkestri üçün əsərləri dünya musiqi mədəniyyətinin tərkibinə daxil edilməli, onun dirijorluq fəaliyyəti xüsusi vurğulanmalıdır”* [Abasova E., 1973]

1951-ci ildən Səid Rüstəmov daha bir kollektivə-Azərbaycan Dövlət Xalq Mahnı və Rəqs ansamblına (indiki Əməkdar kollektiv Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs ansamblı) rəhbərlik edir. Bu kollektivlə birgə Moskva, Leninqrad, Kiyev, Saratov şəhərlərində Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərlərindən ibarət geniş proqramlarla konsertlər verir. Bu konsertlərin sayəsində Azərbaycan musiqisi daha geniş təmsil olunaraq tanınır. Elə bu ildə bəstəkar üçüncü çağırış Azərbaycan SSR Ali Sovetinə deputat seçilir və seçiciləri ilə keçirdiyi görüşlərdə xalqı üçün yaşayıb-yaratmağın onun üçün ən böyük səadət olduğunu dəfələrlə vurğulayır.

1965-ci ildə Səid Rüstəmovun rəhbərliyi ilə xalq çalğı alətləri orkestri Moldovada keçirilən Azərbaycan Mədəniyyəti həftəsində də yüksək səviyyədə çıxış edir [5].

1957-ci ildə bəstəkarın 50 illiyi, 1967-ci ildə 60 illik yubileyi təntənəli şəkildə qeyd olunur. Bu təntənəli tədbirlərdə Səid Rüstəmovun bəstəkar, dirijor, müəllim və ictimai xadim kimi xidmətlərindən danışılaraq, onun əsərləri səsləndirilir.

1959-cu ildə Moskvada keçirilən Azərbaycan Mədəniyyəti və İncəsənəti Ongünlüyündə Səid Rüstəmovun rəhbərliyi ilə xalq çalğı alətləri orkestri maraqlı konsert proqramı ilə çıxış edir və orkestr ifaçılarının son dərəcə professional ifası dinləyicələrin heyrətinə səbəb olur.

Səid Rüstəmovun rəhbərliyi ilə xalq çalğı alətləri orkestri tam püxtələşərək professional bir kollektivə çevrilir. Orkestr Azərbaycan və dünya bəstəkarlarının rəngarəng əsərlərindən ibarət zəngin repertuarla: M.İ.Qlinka “Ruslan və Lüdmila” operasından Çernamorun mahnısı, Vals-fantaziya, Kamarenskaya; N.A.Rimski-Korsakovun “Qar qız” operasından Müqəddimə; P.İ.Çaykovskinin “Qu gölü” baletindən süita, “İlin fəsilləri” silsiləsindən Payız

nəğməsi, Milad bayramı (işləyəni Səid Rüstəmov); L.V.Bethoven Birinci simfoniya"; J.Bize "Karmen" operasından Antrakt, Uvertüra; İ.Brams 5 saylı macar rəqsi (işləyəni Zaxar Stelnik); C.Verdi "Aida" operasından "Marş", "Traviata" operasından Jermonun ariyası (işləyəni Süleyman Ələsgərov); V.Motsart "Rondo", Ü.Hacıbəyli "Koroğlu" operası, M.Maqomayev "Şah İsmayıl", "Nərgiz" operalarından nömrələr (işləyəni Səid Rüstəmov) və digər əsərlərlə konsert axşamlarında, yubiley gecələrində, müxtəlif ölkələrdə çıxışlar edərək dinləyiciləri sevindirir.

Səid Rüstəmov xalq çalğı alətləri orkestrinə rəhbərlik etdiyi dövrdə bir çox milli musiqi alətlərimizi orkestrdə səsləndirərək partituraya daxil etmiş, yalnız milli alətlərimizlə orkestrin tərkibini genişləndirərək səslənmə palitrasını zənginləşdirmişdir. Səid Rüstəmovun atdığı bu addım orkestrin inkişafı yolunda böyük rol oynadı. Bəstəkarlarımız xalq çalğı alətləri orkestri üçün əsərlər yazarkən öz partituralarında milli musiqi alətlərimizə üstünlük verməyə başladılar.

Səid Rüstəmov uzun illər xalq çalğı alətləri orkestrinə rəhbərlik etmiş, orkestrin təkcə dirijoru deyil, həm bəstəkarı, həm də ifaçıların müəllimi olmuşdur. Onun rəhbərlik etdiyi müddətdə repertuara səkkiz yüzdən artıq musiqi əsəri daxil edilmiş, orkestr bir çox ölkələrdə layiqli çıxışlar edərək Azərbaycan musiqisini təmsil etmişdir. Bu barədə görkəmli bəstəkar Firəngiz Əlizadə qeyd edir: "*Xalq çalğı alətləri orkestrində məhz Səid Rüstəmovun böyük səyi nəticəsində böyük tərkib, partitura quruluşu, dirijorluğun əsasları kimi cəhətlər formalaşmışdır*" [Qasımov R., 2012 ]

Düşünürəm ki, dirijorun misilsiz xidmətlərinin nəticəsidir ki, orkestr müasir dövrümüzə kimi Səid Rüstəmovun adını daşıyır. Səid Rüstəmov adına xalq çalğı alətləri orkestri bu gün də dirijorun qoyduğu ənənələri davam etdirərək Azərbaycan musiqisini daim yüksəldir.

2007-ci ildə Azərbaycan Respublikasının Prezidenti bəstəkarın 100 illik yubileyinin yüksək səviyyədə keçirilməsi üçün sərəncam imzalayır. Prezident İlham Əliyevin sərəncamı əsasında Mədəniyyət və Turizm Nazirliyi Səid Rüstəmovun 100 illik yubileyini təntənə ilə qeyd edir.

Nazirlər kabinetinin 1 noyabr 2023-cü il tarixli qərarı ilə "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin Səsyazma Evində fəaliyyət göstərən Səid Rüstəmov adına Xalq Çalğı Alətləri Orkestri Mədəniyyət Nazirliyinin tabeliyindəki Beynəlxalq Muğam Mərkəzinin nəzdinə verilir.

Səid Rüstəmovun yaradıcılığı müasir dövrümüzdə də öz aktuallığını qoruyub saxlayır. Bu gün rəhbərlik etdiyim Əməkdar kollektiv Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs ansamblında Səid Rüstəmovun ənənələri davam etdirilərək, bu ənənələrin əsasında yeni ifaçılıq üslubları formalaşdırılır.

**NƏTİCƏ:** Beləliklə, Səid Rüstəmov Azərbaycanda ilk notlu xalq çalğı alətləri orkestrinin dirijoru kimi milli dirijorluq sənətinin formalaşmasında mühüm rol oynamışdır. O, orkestrin repertuarını zənginləşdirib, ifaçılıq səviyyəsini yüksəldərək Azərbaycan musiqi mədəniyyətinin inkişafına mühüm töhfə vermişdir. Onun adını daşıyan xalq çalğı alətləri orkestrinin bu gün də fəaliyyət göstərməsi Səid Rüstəmov irsinin yaşadılmasını təmin edir.

## Ədəbiyyat siyahısı

1. Abasova E. Səid Rüstəmov. Monoqrafiya. – Bakı, Azərnəşr, 1973. Səh. 48
2. Qulamova Günəl. Üzeyir Hacıbəylinin yaradıcılığında “Cəngi” sədaları. // “Musiqi dünyası”, 4/89, 2021. URL: http://www.anl.az/down/meqale/musiqi_dunyasi/2021/04-89/784762(meqale).pdf
3. Новиков А. Успех Азербайджанского оркестра народных инструментов. Советская музыка №3, 1952, с. 7-11
4. Kazımov N. Azərbaycan musiqi mədəniyyətində Səid Rüstəmov zirvəsi. “Konservatoriya” jurnalı. 2022 №2 (55), səh. 98-103
5. Moldovada Azərbaycan Ədəbiyyatı Günləri. / Ədəbiyyat qəzeti. – 2018. – 15 dekabr. – S. 4. URL: http://www.anl.az/down/meqale/edebiyyat/2018/dekabr/623007.htm
6. Qasımov R. Azərbaycan Televiziya və Radiosunun Səid Rüstəmov adına əməkdar xalq çalğı alətləri orkestri – 80. Bakı, Yazıçı nəşriyyatı, 2012, 208 səh.

**Мустафа Ашуров Ахмед оглы**

# РОЛЬ И ПОЗИЦИЯ САИДА РУСТАМОВА В АЗЕРБАЙДЖАНСКОМ ДИРИЖЕРСКОМ ИСКУССТВЕ

**Резюме:** Представленная статья посвящена исследованию творческой дирижерской деятельности Саида Рустамова, который занимает важное место в азербайджанской музыкальной культуре как композитор, дирижер и общественный деятель. Поскольку в разные годы я работал художественным руководителем-главным дирижером в Оркестре народных инструментов имени Саида Рустамова, Заслуженном коллективе, а в настоящее время являюсь директором-главным дирижером Ансамбля песни и пляски (ныне Азербайджанский государственный ансамбль песни и пляски имени Ф. Амирова, Заслуженный коллектив), которым когда-то руководил он, я поставил перед собой цель исследовать дирижерскую деятельность Саида Рустамова. Саид Рустамов обогатил репертуар руководимого им оркестра, повысил уровень исполнительства и осуществил переложения произведений мировых классиков для оркестра. Сегодня оркестр, носящий его имя, продолжая традиции, заложенные С. Рустамовым, сохраняет его позицию в азербайджанском дирижерском искусстве.

**Ключевые слова:** Саид Рустамов, оркестр, Ансамбль песни и пляски, репертуар, фантазия, концертные гастроли.

**Mustafa Ashurov Ahmad oghlu**

## THE ROLE AND POSITION OF SAID RUSTAMOV IN AZERBAIJANI CONDUCTING ART

**Summary:** The presented article is dedicated to the research of the creative conducting activity of Said Rustamov, who holds an important position in Azerbaijani musical culture as a composer, conductor, and public figure. Having worked in different years as the Artistic Director – Principal Conductor of the Folk Instrument Orchestra named after Said Rustamov, an Honored Collective, and currently serving as the Director-Principal Conductor of the Folk Song and Dance Ensemble (now the Azerbaijan State Song and Dance Ensemble named after F. Amirov, an Honored Collective), which he once led, I have set myself the goal of studying the conducting activity of Said Rustamov. Said Rustamov enriched the repertoire of the orchestra he led, raised the level of performance, and made transcriptions of works by world classics for the

orchestra. Today, the orchestra bearing his name, continuing the traditions established by S. Rustamov, preserves his position in Azerbaijani conducting art.

**Key words:** Said Rustamov, orchestra, song and dance ensemble, repertoire, fantasy, concert tours.

**Məqalənin redaksiyaya daxilolma tarixi: 11.03.2026**
**Məqalənin çapa qəbul olunma tarixi: 25.03.2026**